*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 dekabr 2019-cu il № 101 (2418) Qiyməti 30 qəpik


# Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2019-cu il.



"Hərbi xidmət bizə həm də Vətəni necə qorumağı öyrədir"

4-cü səhifədə



Heydər Əliyev adına AAHM-də Milli Qəhrəmanın xatirəsi yad edilib

5-ci səhifədə



Ön xətdə konsert

7-ci səhifədə



Hər günümüzü həmrəylik günü ovqatıyla yaşayacağıq

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, Azərbaycanımızın dövlət müstəqilliyi, ərazi bütövlüyü, torpaqlarımızın azadlığı naminə çətin və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri sayəsində müstəqil respublikamızda azərbaycançılıq ideyasının bərqərar olmasına, xalqın milli özünüdərk və milli mənlik şüurunun daha da güclənməsinə zəmin yarandı, dünya azərbaycanlılarının həmrəyliyi təmin edildi.

Ulu Öndərin siyasi kursunun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən inamla davam etdirilməsinin nəticəsidir ki, dövlətçiliyimizin siyasi və iqtisadi dayaqları daha da möhkəmlənib və demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər əldə olunub.

Azərbaycan Ordusunda həyata keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı təlimlər şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksəltməklə ölkəmizin müdafiə qüdrətini daha da artırıb. Müasir hərbi quruculuq prosesində uğurlu islahatların şahidi olmaq, yenilikləri əyani şəkildə müşahidə etmək üçün orducəmiyyət əlaqələrinin daha da genişlənməsinə böyük imkanlar yaradılıb. Şəhid ailələri, müharibə veteranları və əlilləri, eləcə də hər bir hərbi qulluqçu dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.

Dövlətimizin siyasi və iqtisadi əsaslarının möhkəmləndirilməsi, müdafiə qüdrətinin artırılması istiqamətində qəbul edilən qərarlar, atılan uğurlu addımlar böyük nailiyyətlərin əldə olunmasını təmin edir. Görülən işlər bütün sahələrdə olduğu kimi, ordu quruculuğu prosesinə də müsbət təsirini göstərib. Əminliklə deyə bilərik ki, 2019-cu il Azərbaycan Ordusu üçün də uğurlu olub.

Cari il ərzində Azərbaycan Ordusunun qoşun növləri cəlb edilməklə bir neçə genişmiqyaslı təlim, birlik və birləşmələrin iştirakı ilə 70-dən çox əməliyyat-taktiki və komanda-qərargah təlimi və məşqi keçirilib.

Eyni zamanda, hazırlıq planına uyğun olaraq tədris ilində 15-dək briqada taktiki, 300-dən çox tabor (divizion) taktiki təlimi, eləcə də Hərbi Hava Qüvvələrində 80-dən artıq taktiki-uçuş və Hərbi Dəniz Qüvvələrində 6 gəmi-döyüş təlimi icra olunub.

Bu il ərzində qoşunların yerləşdirilməsi sisteminin təkmilləşdirilməsi və müasir sosial-məişət infrastrukturuna malik hərbi şəhərciklərin yaradılması üzrə tədbirlərin yerinə yetirilməsi davam etdirilib. Hərbi hissələrdə müxtəlif təyinatlı 60-dək hərbi infrasruktur obyekti, bir yeni hərbi hospital kompleksi, hərbi qulluqçular üçün yaşayış binaları inşa edilib, ümumilikdə 200-dən artıq xidməti mənzil hərbi qulluqçuların istifadəsinə verilib, müxtəlif təyinatlı 26 hərbi infrastruktur obyekti təmir olunub və hazırda bir sıra obyektlərin inşası davam etdirilir.

Sadaladıqlarımız il ərzində hərbi hissələrdə yerinə yetirilən işlərin az bir qismidir və əminliklə deyə bilərəm ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən prioritet elan edilmiş ordu quruculuğu prosesi yüksələn templə, davamlı olaraq həyata keçiriləcək, Azərbaycan Ordusu növbəti illərdə də bir çox uğurlara imza atacaqdır.

İnanıram ki, bütün bunlar Sizin ordumuz qarşısında qoyulan vəzifələrin icrasına məsuliyyətinizi daha da artırır, Vətən qarşısında borcunuzu vicdanla yerinə yetirməyə ruhlandırır. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və Nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə etməklə Ali Baş Komandanın hər bir əmrinə hazır olacaqsınız.

Bu bayram günlərində şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları təbrik edirəm.

Bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hər birinizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, Vətən naminə müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək!

**General-polkovnik**
**Zakir HƏSƏNOV,**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Heydər Əliyev adına AAHM-də yeni kursant yataqxanası istifadəyə verilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) yeni istifadəyə verilən dördmərtəbəli kursant yataqxanasının açılışında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Müdafiə Nazirliyinin rəhbərliyi hərbi məktəbin ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad edib.

Sonra Müdafiə naziri və nazirliyin digər rəhbər heyəti yeni kursant yataqxanasının açılışını ediblər.

Müdafiə nazirinə məlumat verilib ki, müasir tələblərə cavab verən yeni dördmərtəbəli bina şəxsi heyətin əşyalarının saxlanması üçün anbardan, silah, ideoloji, dəftərxana, məişət və digər otaqlardan ibarətdir. Bütün otaqlar mebel və kommunikasiya xətləri ilə təmin olunub. Ətrafda abadlıq işləri aparılıb, yaşıllaşdırma sahəsi salınıb.





# Hərbi hissələrdən birində qərargah və Təlim Məşq Mərkəzinin yeni inzibati binalarının açılışı olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernizasiyası planına əsasən, həyata keçirilən fəaliyyətlər davam etdirilir. Dekabrın 28-də hərbi hissələrdən birində qərargah və Təlim Məşq Mərkəzinin yeni inzibati binalarının açılış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərkəzin fəaliyyəti barədə Müdafiə naziri general-polkovnik Zakir Həsənova brifinq təqdim edilib. Məruzə olunub ki, mərkəz müasir və yüksək texnologiyalı simulyator qurğuları quraşdırılmış sinif, bütün kommunikasiya xətləri və digər zəruri avadanlıqlarla təchiz edilmiş inzibati və xidməti iş otaqlarından ibarətdir.

Bildirilib ki, mərkəzdə xüsusi kompüter proqramları ilə təmin olunmuş avadanlıqlar və trenajorlar şəxsi heyətin bilik və bacarıqlarının lazımi səviyyədə saxlanılmasına, tapşırıqlarının real döyüş şəraitinə uyğun, vaxtında və dəqiq yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirilməsinə imkan verir. Təlimatçılar tərəfindən hər bir öyrədilənin ixtisasına uyğun olaraq şərti tapşırıqlar qoyulur, onların tapşırığı yerinə yetirməsi prosesi elektron xəritələrdə izlənilir və qiymətləndirilir.

Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin simulyator, eləcə də digər xidməti və inzibati otaqları ilə tanış olub.

# Hərbi qulluqçulara yeni mənzillər verildi

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən, hərbi qulluqçular üçün inşa edilən növbəti yaşayış binasının açılışı olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, açılış mərasimində hərbi qulluqçular, eləcə də onların ailə üzvləri ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edib.

Müdafiə naziri görülən kompleks tədbirlərin ölkə başçısının Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu xüsusi qeyd edib.

Nazir bildirib ki, yeni xidməti mənzillərin istifadəyə verilməsi hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsidir. Bu, ümumilikdə Azərbaycan Ordusunda şəxsi heyətin mənzil təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərin davamıdır.



Silahlı Qüvvələrin Ali Baş Komandanının qayğısı nəticəsində son illərdə mütəmadi olaraq hərbi qulluqçuların daimi və xidməti mənzillərlə təmin olunduğunu qeyd edən Müdafiə naziri bu işlərin növbəti ildə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Yeni bina ilə tanışlıq zamanı məlumat verilib ki, dördmərtəbəli, dörd bloklu, 44 mənzilli bina tam təmirli mənzillərdən ibarətdir və bütün kommunikasiya xətləri ilə təchiz olunub.

Bildirilib ki, bina üçün nasosxana, hovuz, yarımstansiya tikilib, qaz, su, işıq sayğacları qoyulub, mənzillər mətbəx mebeli və kondisionerlərlə təmin edilib. Ərazi hasara alınıb, asfalt döşənib, uşaqlar üçün şəhərcik salınıb, idman qurğuları quraşdırılıb və yaşıllaşdırma işləri görülüb. Hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahəti üçün bütün lazımi şərait yaradılıb.

Mənzillə təmin olunan hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi yaradılan şəraitlə tanış olub və ailələrin qayğıları ilə maraqlanıb.

* * *

"N" hərbi hissəsində yeni təmir edilmiş 70 mənzilli beşmərtəbəli binanın hərbçi ailələrinin istifadəsinə verilməsi münasibətilə açılış mərasimi keçirildi. Tədbirdə zabitlər, gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və onların ailələri iştirak edirdilər. Hamı sevinc içindəydi, hamının gözündən sevinc yağırdı.

Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov əvvəlcə mərasim iştirakçılarını salamlayaraq əlamətdar gün münasibətilə onları təbrik etdi. Sonra mərasimdə çıxış edən general-leytenant Ramiz Tahirov bildirdi ki, zabitlər, gizirlər, hərbçilər və onların ailələri daim dövlətimizin başçısı, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət mərkəzindədir. "Bu gün 70 mənzilli beşmərtəbəli binanın təntənəli açılışı bunun bariz nümunəsidir. Yeni mənzillərə köçməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm, uzun ömür, cansağlığı arzulayıram. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun salam və təbriklərini də sizin diqqətinizə çatdırmaq istəyirəm. İnanıram ki, hərbçi ailələri bundan sonra daha rahat, daha gözəl şəraitdə yaşayacaqlar. Dövlət başçısının hərbçilərə qayğısı, diqqəti daim olacaqdır. Hörmətli mərasim iştirakçıları, qarşıdan Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir. Adlarını çəkdiyim bu bayramlar hər birimiz üçün doğma və əzizdir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bizi birləşdirən, doğmalaşdıran bir bayramdır. Bu bayramlar münasibətilə hər birinizi təbrik edir, xidmətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram."

Çıxışını bitirdikdən sonra general-leytenant Ramiz Tahirov mənzillərin açarlarını alqış sədaları altında hərbçilərə təqdim etdi.

Binanın açılışını bildirən rəmzi - qırmızı lenti kəsəndən sonra Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov mənzillərə baş çəkdi, buradakı şəraitlə tanış oldu. İlk olaraq kapitan Bəxtiyar Quluyevin qapısı döyüldü. Mənzildəki şərait, səliqə-sahman göz oxşayırdı. Burada mətbəx və yataq mebelləri quraşdırılmışdı. General-leytenant Ramiz Tahirov hərbçi ailəsinin qonağı oldu. Onlarla çay süfrəsi arxasında oturub söhbət etdi, qayğıları ilə maraqlandı. Mənzil almaları münasibətilə onları bir daha təbrik etdi.

Hərbçinin ailəsi sevinc içində idi. Zabitin həyat yoldaşı Könül Quluyeva ilə söhbət edərkən dedi ki, sevincim yerə-göyə sığmır. "Belə yaddaqalan gözəl xoş anları bizə yaşatdığına görə ölkə başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, yaxın vaxtlarda bütün hərbçi ailələri bizim kimi rahat mənzillərlə təmin olunacaqlar."

Zabitin uşaqları Ramazan və İbrahim də sevinc içindəydilər. Onlar geniş otaqlarda oynayır, deyib-gülür, sevinclərinə sevinc qatırdılar.



Sonra general-leytenant başqa mənzillərə də baxış keçirdi. Bütün mənzillərdə kombi sistemi quraşdırılmışdı, otaqlar yataq dəstləri və mətbəx mebelləri ilə təmin edilmişdi. Binanın ətrafında yaşıllaşdırma və abadlıq işləri aparılmışdı. Əlli ton həcmində iki ədəd ehtiyat su çəni quraşdırılmışdı. Bir sözlə, hərbçi ailələrinin rahat yaşamaları üçün binada hərtərəfli şərait yaradılmışdı.

Mənzil alan zabitlərdən mayor Xeyrulla Hüseynov onların yaşaması üçün belə yüksək şərait yaradıldığına görə ölkə başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi. "Biz hərbçilər üçün çox sevindirici gündür. Ordumuzun qüdrəti, gücü, maddi-texniki təminatı artdıqca, hərbçilərin sosial şəraiti gündən-günə yaxşılaşır. Biz xidmətimizin, yaşayışımızın hər addımında dövlətimizin qayğısını, diqqətini hiss edirik. Bütün bunlar isə hərbçiləri daha da nümunəvi xidmət etməyə ruhlandırır."

Mayor Rövşən Ağayev də yenicə istifadəyə verilmiş binadan mənzil alanlardan biri idi. Hiss etdim ki, sevinc içindədir, ovqatı yaxşıdır. Yaxınlaşıb təəssüratlarını bizimlə bölüşməyini xahiş etdim. Zabit dedi ki, hərbçi ailələrinin istifadəsinə verilən bina 70 mənzildən ibarətdir. "70 hərbçi ailəsini sevindirmək, onları yeni mənzillərə köçürmək bizim üçün əlamətdar bir hadisədir. Bu gün həmişəlik olaraq bizim yaddaşımızda qalacaq. Gördüyünüz kimi, binanın ətrafına asfalt döşənib, rahat yol çəkilib, yaşıllaşdırma və abadlıq işləri görülüb. Binanın qarşısında iki ədəd besetka quraşdırılıb. Bütün bunlar bizim rahatçılığımız üçün yaradılıb. Bunlara görə mən bu binada mənzil alacaq bütün hərbçilər adından möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımı bildirirəm. Dövlətimizin göstərdiyi bu diqqət və qayğıya biz nümunəvi xidmətimizlə, cəsarət və igidliyimizlə cavab verəcəyik."

Yeni istifadəyə verilmiş binanın qarşısında böyük canlanma var idi. Hərbçi ailələri yeni aldıqları mənzillərə köçürdülər. Hamının üzündən sevinc yağırdı. Sevinc-sevincə qarışmışdı. Həm hərbçilər, həm də onların ailələri təkcə bu gün deyil, dövlətimizin diqqət və qayğılarını daim öz üzərilərində hiss edəcəklər.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ön xətdən reportaj

# "Hərbi xidmət bizə həm də Vətəni necə qorumağı öyrədir"



*Ön xətdə ezamiyyətdəyəm. Döyüş növbətçiliyi aparan əsgərlərimizlə, zabitlərimizlə söhbətləşirəm.*

Zabit Vurğun Orucov deyir: "Tabeliyimizdə olan əsgərlərin hamısı Ali Baş Komandanın əmrini gözləyir ki, torpaqlarımızı işğalçılardan azad etmək üçün döyüşsünlər. Ocaqları doğma sakinlərinə həsrət qalıb. 2016-cı ilin Aprel döyüşlərində və Günnüt zəfərində olduğu kimi, qələbə qazanacağıq. Buna tam əminəm."

Sonra zabit son illər orduda həyata keçirilən irimiqyaslı islahatlardan, tikinti-abadlıq işlərindən söhbət açaraq deyir ki, görülən tədbirlər Ali Baş Komandanımızın orduya verdiyi önəmin təzahürüdür. Həqiqətən də, bölmənin yeni tikililəri diqqətimizi uzaqdan çəkmişdi. Bölmədə ən müasir məişət şəraitinin yaradıldığından qürur duyuruq. Belə yüksək şərait ordu quruculuğunun uğurudur.

...Səngərlərə gedirik, müşahidə postlarında döyüş növbəsində dayanan əsgərlərlə görüşürük.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Arzu Əliyev Qarabağ müharibəsini, doğma yurd-yuvasından didərgin düşən, amansızcasına qətlə yetirilən həmvətənlərimizi heç zaman unutmadığını, qisas hissi ilə alışıb yandığını bildirərək deyir ki, o vaxtlar uşaq yaşlarında olsam da, həmin dövrü xatırlaya bilirəm. "Həmin illərdə könüllü olaraq cəbhəyə gedənlərin silahına, hərbi formasına həsədlə baxırdım. Fikirləşirdim ki, böyüyəndə mən də onlara oxşayacam. Beş ildən çoxdur ki, şərəfli peşə sahiblərinin sırasındayam, məqsədim, amalım Vətənimizin ərazi bütövlüyünün təmin edilməsində döyüşəcək əsgərlərin sırasında olmaqdır. Düşmənlərimiz döyüşlərdə gücümüzü gördülər, nəyə qadir olduğumuzu anladılar. Biz öz ata-baba torpaqlarımızı azad edəcəyik. Qələbə də bizim olacaq".

Arzunun qətiyyətini şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksək olmasını Böyük Qələbəyə inam bilirəm.

Əsgər Murad Qasımzadə deyir: "Düşmənlə təmas xəttində xidmət etmək məsuliyyətimizi daha da artırır. Düşmən atəşkəsi tez-tez pozur və cavab atəşimizlə susdurulur. Döyüş növbətçiliyini ayıqsayıq aparırıq. Vətənimizin keşiyində inamla və qürurla dayanmışıq".

Həmsöhbət olduğumuz hər bir əsgərin Vətənə bağlılığını, sonsuz sevgi bəslədiyini duyuruq. Onların inamlı xidməti ordumuzun güc və qüdrətini daha da artırır, bizi Böyük Qələbəyə yaxınlaşdırır... Əsgər Mirhafiz Bağırzadə ordu həyatında yaddaqalan günlərindən danışır, səngərli günləri heç vaxt unutmayacağını bildirir. "Burada keçirdiyim hər gün mənalı və yaddaqalandır. Çünki səngər həyatı unudulmazdır, səngərdə dayanmaq ikiqat qürurlu xidmətdir. Torpaqlarımızı qoruyuruq, bir çox üstün keyfiyyətlər qazanırıq. Bütün əsgərlər adından əminliklə deyirəm ki, bizə güvənən xalqımıza Böyük Qələbənin sevincini yaşatmaq üçün Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq".

Səngər əsl həyat məktəbidir, burada əsgərlər cəmiyyətimiz üçün gərəkli vətəndaş kimi formalaşırlar. Hərbi xidmətlərini başa vurandan sonra da istənilən anda Vətənin çağırışına hazırdırlar. Aprel döyüşlərində də bunun şahidi olduq. Müxtəlif bölgələrdən olan yüzlərlə gənc döyüşmək üçün komandanlığa müraciət etmişdi. Buna ehtiyac olmamışdı - ordumuzun şəxsi heyəti qarşıya qoyulan istənilən mühüm tapşırığı uğurla yerinə yetirməyə qadirdir.



Əsgər Hilal Ağayev yaradılan şəraitdən və komandirlərin qayğıkeşliyindən danışır. "Onların sayəsində hərbi xidmətin sirlərinə alışırıq, ən başlıcası Vətənimizi qorumağı öyrənirik. Torpaqlarımızın keşiyində dayananda bizdən arxada, evlərdə yanan işıqları düşünürük. O işıqların yanmasında, insanların əmin-arxayın yaşamasında bizim zəhmətimizin, əməyimizin olduğunu, bizə güvəndiklərini fikirləşəndə qürurlanırıq. Onların bu güvənci ruh yüksəkliyimizi daha da artırır."

Təsərrüfat qayğılarıyla məşğul olan insanlar əsgərlərə güvənirlər. Xalqımızın orduya güvənci böyükdür. Bu inam, etimad hər bir əsgər və zabitimizə könül xoşluğu verir. Hamısının amalı birdir - işğalda olan torpaqlarımızı düşməndən azad etmək.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrin Baş Klinik Hospitalında seminar keçirilib

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən Silahlı Qüvvələrin Baş Klinik Hospitalında "Başgicəllənməsinə otorinolarinqoloji baxış" mövzusunda seminar keçirilib.

Hərbi həkimlərlə yanaşı, Azərbaycan Tibb Universitetinin Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri professor doktor Vəfa Pənahianın rəhbərlik etdiyi kafedranın əməkdaşları, həmçinin digər mülki tibb müəssisələrinin həkimləri iştirak ediblər.

Tədbirdə seminarın mövzusu ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 dekabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun işğal altında olan Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz kəndləri yaxınlığında yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi hissədə görüş keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin nümayəndələrinin (AQMƏVŞAİB), "Babək 44" taborunun döyüşçülərinin və şəhid ailələrinin iştirakı ilə "N" hərbi hissəsində şəxsi heyətlə görüş keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi, eləcə də Şəhidlər xiyabanı ziyarət olunub.

Sonra qonaqlar hərbi hissədə ağacəkmə aksiyasına qoşulublar.

Şəxsi heyətlə görüşdə Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edənlər ehtiyatda olan polkovniklər Nazim Əhmədov, Elxan Qəniyev, Abakar Mirzəyev, AQMƏVŞAİB-in sədri Mehdi Mehdiyev, polkovnik-leytenant Vüqar İspəndiyarov və başqaları xatirələrini bölüşüb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illər ordumuzun qazandığı uğurlardan danışıblar.

Sonra Gəncə şəhəri 39 nömrəli tam orta məktəbin şagirdləri və "Babək 44" taborunun döyüşçüsü Əli Babayevin nəvələri vətənpərvər şeirlərlə çıxış ediblər.

"Babək 44" taborunun xüsusi qol saatları kəşfiyyatçılara və keçmiş döyüşçülərin hazırda həmin hərbi hissədə xidmət edən övladlarına hədiyyə olunub.

Əfsanəvi taborun döyüş yolu haqqında filmlərin diskləri isə şəhid ailələrinə təqdim edilib.

Sonda "Əsgərə məktub" layihəsində iştirak edən keçmiş döyüşçülər ön xətdə xidmətdə olan Azərbaycan Ordusunun əsgərlərinə məktublar yazıb arzularını çatdırıblar.

# Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə daha 36 mənzil təqdim edilib

Dekabrın 26-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Qaradağ rayonunda və Abşeron rayonunun Məmmədli kəndində yeni yaşayış binalarından alınmış 36 mənzil şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan vətəndaşlara təqdim edilib.

**AZƏRTAC**

# Heydər Əliyev adına AAHM-də Milli Qəhrəmanın xatirəsi yad edilib

*Azərbaycanın Milli Qəhrəmanı Çingiz Salman oğlu Qurbanovun şəhid olduğu vaxtdan üç il keçir. Üç il öncə əsgər Çingiz Qurbanov Vətəni müdafiə edərkən qəhrəmanlıqla həlak olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəhidin ailə üzvlərini qəbul edərkən dediyi kimi Çingiz böyük qəhrəmanlıq, böyük igidlik göstərmişdir. Düşmənlə üzüzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə gəlmişdi. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır.

Ali Baş Komandanın "Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir... Bütün Azərbaycan Çingizlə fəxr edir... Çingiz ölməyib, o, bizim ürəyimizdə yaşayır, yaşayacaqdır..." sözləri bu gün Azərbaycan Ordusunun hərbi hissələrində keçirilən vətənpərvərlik tədbirlərində bir daha xatırlanır və hərbi qulluqçularımızı Çingiz kimi igidlərin qəhrəmanlıqlarından bəhrələnməyə, şanlı döyüş tariximizə yeni-yeni səhifələr yazmağa ruhlandırır.

Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də qəhrəmanın xatirəsi yad edilib.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Milli Qəhrəmanın qısa, lakin mənalı ömür yolu barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş (ölümündən sonra) Çingiz Qurbanovun adı ölkəmizdə yetərincə əbədiləşdirilib. Qusar şəhərində küçələrdən birinə, xidmət etdiyi döyüş mövqeyinə, təhsil aldığı Həzrə kənd tam orta məktəbinə onun adı verilib, xatirə lövhəsi vurulub, haqqında kitab yazılıb, film çəkilib, tamaşa hazırlanıb. Şəhidin ailəsi Bakı və Qusar şəhərlərində mənzillə təmin olunub. Ailəsi daim diqqət mərkəzindədir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən qəhrəmanın anadan olmasının 25 illiyi doğulduğu Qusar rayonunda, xidmət etdiyi hərbi hissələrdə, eləcə də cəbhəyanı bölgələrdə təntənəli şəkildə qeyd olunub. Bu günlər isə onun xatirəsinə həsr olunmuş anım mərasimləri keçirilir.

Tədbirdə polkovnik Emin Səfərov çıxış edərək milli qəhrəmanların təbliğinin gələcək zabitlərin yetişməsində, onların Vətənə, dövlətə, xalqa sədaqət ruhunda tərbiyə olunmasında, döyüş və vətənpərvərlik hissinin yüksəldilməsində müstəsna rol oynadığını bildirib.

Son vaxtlar Bakı Bələdiyyə Teatrının repertuarına daxil olan Abdulla Qurbaninin "Çingiz dastanı" adlı ikihissəli tamaşa təqdim edilib. Tamaşada teatrın aparıcı aktyorlarından Əməkdar artistlər Səmayə Sadıxova, Əfqan Soltanov, Hüsniyyə Mürvətova, Aydın Əliyev, İlqar Musayev və başqaları ifa etdikləri obrazlarla tamaşaçıların böyük marağına səbəb olublar. Kütləvi səhnələrdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti çıxış edib.

Tamaşadan sonra Bakı Bələdiyyə Teatrına, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinə, eləcə də aktyorlara qəhrəmanlıq ənənələrinin təbliğində və Azərbaycan Ordusunun şəxsi heyətinə mədəni xidmət göstərilməsində fəaliyyətlərinə görə Müdafiə Nazirliyinin adından hədiyyələr təqdim edilib.

# "Yeni ili ailəmizlə birlikdə bizə bağışlanan mənzildə qarşılayacağıq"

Həyat yoldaşım Vidadi Qocayev 1992-ci ilin əvvəllərindən könüllü olaraq ordu sıralarında Ağdam və Ağdərə bölgəsində erməni qəsbkarlarına qarşı döyüşlərdə iştirak etmişdi. Snayper idi. 1993-cü il iyulun 23-də Ağdam uğrunda gedən döyüş onun cəbhə həyatında sonuncu oldu. Aldığı qəlpə yarasından ayağını amputasiya etdilər, Bakıda həkimlərin göstərdiyi səyə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmadı...

Gəncə şəhərindəki Əhməd Cavad adına 2 nömrəli tam orta məktəbin müəllimi Mehriban Qocayeva AZƏRTAC-ın müxbirinə ömür-gün yoldaşının yarıda qırılan ömür yolu barədə bunları söyləyib.

Mehriban xanım Vidadinin itkisindən sonra üç oğul övladını böyüdüb boya-başa çatdırıb. Onlardan ikisi ailə həyatı qurub, 4 nəvəsi var. Bakıda mühafizə xidmətində işləyən digər oğlu Rufan hələ ki, subaydır. Dekabrın ortalarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Gəncə şəhərində yaşayan bir qrup şəhid ailəsi və müharibə əlilinə təqdim etdiyi üç otaqlı mənzillərdən biri də ona verilib.

# "Birliyimiz əbədidir!" mövzusunda tədbir keçirildi

*Azərbaycan Hərb Tarixi Muzeyinin və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş "Birliyimiz əbədidir!" mövzusunda tədbir keçirildi.*





Tədbirdə Müdafiə Nazirliyinin idarə və təşkilatlarının əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə "Xalqımızı birləşdirən dəyər: Milli birlik və həmrəylik" adlı məruzə ilə çıxış edərək bildirdi ki, milli birlik və həmrəylik hər bir xalqın tarixi inkişafında mühüm şərtlərdəndir. "Milli birliyə nail olmayan xalqın müstəqil, azad yaşamaq imkanı da yoxdur. Milli birlik milli mənlik şüurunun dərkindən başlayır. Bu gün qloballaşan dünyada ayrı-ayrı dövlətlərin və xalqların bir-birinə sıx yaxınlaşdığı bir vaxtda milli özünüdərkin əhəmiyyəti daha aydın görünür. Azərbaycan xalqı da tarixən öz azadlığı, müstəqilliyi uğrunda mübarizə apararaq ötən əsrin əvvəllərində və sonunda bu arzusunu həyata keçirmiş, müstəqil dövlətçiliyini bərpa etmişdir.

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edildi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət etdi. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin müraciəti nəzərə alınaraq, dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olundu".

Muzey rəisi qeyd etdi ki, müstəqillik qazanıldıqdan sonra əldə olunan nailiyyətlər sayəsində bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsinə geniş imkanlar açılmışdır. "Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamına müvafiq olaraq 2001-ci il noyabrın 10-da Bakı şəhərində Dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Qurultayda Azərbaycan Respublikası Prezidentinin nitqinin aparıcı xəttini belə bir tezis təşkil edirdi: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik..."

Ehtiyatda olan polkovnik vurğuladı ki, son illər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində dünya azərbaycanlılarının birliyinin möhkəmləndirilməsi prosesində yeni mərhələ başladı.

Tədbirdə çıxış edənlər bu günün yaranma tarixindən, onun əhəmiyyətindən və bu sahədə ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən bəhs etdilər. Xüsusi vurğuladılar ki, Azərbaycan dövlətinin artan uğurları ölkəmizdə bütün sahələrin, həmçinin ordu quruculuğunun inkişaf etdirilməsinə möhkəm zəmin yaradıb. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində ordu quruculuğu sahəsində qazanılan uğurlar dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən bu gün də uğurla davam və inkişaf etdirilir.

Əlamətdar günə həsr olunmuş sənədli film tədbir iştirakçıları tərəfindən diqqətlə izlənildi.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin və respublikanın tanınmış müğənnilərinin ifalarından təşkil olunmuş bayram konserti ilə başa çatdı.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

# Dağlıq Qarabağ münaqişəsi: problemlər və perspektivlər

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər PİRİYEV



Bəşər tarixi yarandığı gündən müharibələrlə üz-üzə gəlib. Tarixi inkişafın bütün mərhələlərində dövlətlər və siyasi ittifaqlar arasında münaqişələr olub. Tarix boyu müharibələr, əsasən, ərazi və resurslar üçün aparılıb və dini, mədəni, ideoloji, etnik və digər ziddiyyətlərə səbəb olub.

Müasir dövrdə mütəxəssislər daha çox müharibə deyil, "silahlı münaqişə" anlayışından istifadə edirlər və onları miqyasına görə qlobal, regional və lokal olmaqla üç növə ayırırlar.

"Soyuq müharibə"dən sonra elə təsəvvür edilirdi ki, regional və lokal münaqişələr tezliklə nizamlanacaq. Fərziyyələr özünü doğrultmadı. İkiqütblü dünya strukturunun dağılması aqressiv millətçiliyin və separatizmin növbəti dalğasına səbəb oldu. Köhnə münaqişələrlə yanaşı, dünyanın müxtəlif regionlarında yeni münaqişə ocaqları da yaranmağa başladı. Cənubi Qafqaz regionunda belə münaqişələrdən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti oldu.

Ermənistanın Azərbaycandan əsassız ərazi iddiası XIX əsrin əvvəllərindən etibarən - Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin 40 mininin Qacar İranından, 90 mininin Osmanlı imperiyasından Şimali Azərbaycan ərazilərinə köçürülməsindən sonra başlansa da, erməni separatçıları 80-ci illərin ortalarında M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə yenidən fəallaşdı, milli ədavət daha da qızışdırılmağa başladı. Azərbaycanın Yuxarı (Dağlıq) Qarabağ regionu Ermənistanın dövlət separatizmi meydanına çevrildi.

1991-ci ilin sonlarında Ermənistan Respublikası Azərbaycan Respublikasına qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistan hərbi qüvvələri Azərbaycan sərhədlərini pozub Qarabağa daxil oldu, bir sıra şəhər və kəndləri işğal etdi. Ermənistan silahlı qüvvələri irimiqyaslı hərbi əməliyyatları genişləndirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1992-ci illərin əvvəllərindən başlayaraq daha çox beynəlxalq xarakterli problemə çevrildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası ATƏM-in (ATƏT) üzvü oldu və həmin il iyulun 8-10-da təşkilatın Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı. Müstəqil Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin müzakirə obyektinə çevrildi.

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu bütün Yuxarı Qarabağı işğal etdi. Ermənistan Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün dəhliz açmaq istəyirdi. Bu yolda iki respublika arasında yerləşən qədim Azərbaycan şəhəri Laçın əsas manеə idi. Beləliklə, 1991-1993-cü illərdə Ermənistan hərbi qüvvələri Azərbaycan Respublikasının Yuxarı (Dağlıq) Qarabağ bölgəsini, habelə Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarını işğal etdi. Ümumiyyətlə, Ermənistanın təcavüzü nəticəsində 25 mindən artıq Azərbaycan vətəndaşı həlak oldu. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Azərbaycan mədəniyyətinin nadir inciləri məhv edildi. Azərbaycan Respublikasına qarşı təcavüz ölkənin sosial-iqtisadi həyatına ciddi ziyan vurdu. İşğal olunan ərazilərdə 871 yaşayış məntəqəsi, o cümlədən 11 şəhər, 12 qəsəbə, 848 kənd, yüzlərlə xəstəxana yandırıldı və ya yararsız hala salındı. Yüz minlərlə bina və mənzil, minlərlə ictimai bina dağıdıldı, qarət edildi. Yüzlərlə kitabxana talan olundu, çoxlu sayda dəyərli əlyazma yandırıldı, məhv edildi. Bir neçə dövlət teatrı, yüzlərlə klub və çoxlu sayda musiqi məktəbi məhv edildi. Minlərlə emal, kənd təsərrüfatı və başqa tipli fabrik və zavod talan edildi. Yüzlərlə kilometr uzunluğunda suvarma sistemi tamamilə dağıdıldı. Azərbaycan otlaqlarının 70 faizi işğal olunmuş ərazilərdə qaldı. Bölgə infrastrukturu, o cümlədən yüzlərlə körpü, yüzlərlə kilometr yol, minlərlə kilometr su və qaz kəməri, çoxlu sayda qaz paylama məntəqəsi dağıdıldı. Azərbaycana qarşı müharibə həm işğal edilmiş ərazilərdə, həm də Ermənistanda Azərbaycanın mədəni irsinə ciddi ziyan vurdu.

1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına deyil, münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına razılıq verdilər. Ermənistan tərəfi BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan arasında atəşkəs (Bişkek) protokolu imzalandı və bununla da Dağlıq Qarabağ münaqişəsi dondurulmuş konfliktlər siyahısına daxil edildi.

Hər bir beynəlxalq təşkilatın produktiv fəaliyyət göstərməsi üçün onun təsiretmə mexanizmi mövcud olmalıdır. ATƏT-in Minsk Qrupunun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini (822, 853, 874, 884 saylı) yerinə yetirmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir təsir gücünə malik deyildi. ATƏT-in müqavıləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbul etmə mexanizmi yoxdur. Minsk qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və tövsiyə xarakteri daşıyır. ATƏT-də tətbiq olunan qarşılıqlı güzəşt prinsipi müqaviləni pozan tərəfə öz əməllərinə görə məsuliyyət daşımamaq imkanı verir. Bu isə nəticə etibarilə işğalçı ilə işğala məruz qalan tərəf arasında fərq qoyulmamasına gətirib çıxarır, qəsbkarı cəzasız qoymaqla güzəştə getməməyə təşviq edir.

Ermənistanın işğalına məruz qaldıqdan sonra da Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏT prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. Münaqişənin dinc vasitələrlə nizama salınması üçün yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlarda tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxartdı.

1998-ci il noyabrın 9-da beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbuledilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklif irəli sürüldü. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən süni "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi. "Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi manеə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı. Həmsədrlər tərəfindən irəli sürülən "Ümumi dövlət" ideyası iflasa uğradıqdan sonra Minsk qrupunun fəaliyyəti praktik olaraq dayandı.

1999-cu il aprelin 26-da ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentləri arasında yeni formatda birbaşa danışıqlara başlandı və ATƏT-in Minsk Qrupu tərəfindən danışıqların bu formatı bəyənildi. Lakin bu görüşün nəticəsində də münaqişənin nizama salınması istiqamətində konkret nəticə əldə edilmədi.

Mövcud formatın səmərəli olmadığını görən ATƏT-in Minsk Qrupu 2009-cu il iyulun 10-da "Böyük səkkizlər"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ problemini müzakirə etdilər. Müzakirənin nəticəsində hər üç dövlətin prezidentinin münaqişə ilə bağlı qəbul etdiyi birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərini Baza Prinsiplərinə dair son təkliflərin əks olunduğu, yəni, 2007-ci il noyabrın 29-da açıqlanmış yeni Madrid prinsipləri təqdim edildi. Lakin bununla belə münaqişənin nizama salınması prosesində Azərbaycan və Ermənistan tərəflərinin mövqelərində müəyyən fərqlər qalmaqdadır. Azərbaycan dövlətinin mövqeyi əvvəlki kimi birmənalıdır. Yəni, ermənilər Dağlıq Qarabağ ətrafında işğal etdikləri əraziləri mərhələli şəkildə azad etməli, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Bundan sonra isə keçid dövründə Laçın və Kəlbəcər rayonlarının azad edilməsi ilə, eyni zamanda, Dağlıq Qarabağ və Ermənistan arasında dəhlizin yaradılması mümkündür.

Növbəti mərhələdə Dağlıq Qarabağdan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmalı və orada sülhməramlı qüvvələr yerləşdirilməlidir. Dağlıq Qarabağın azərbaycanlı əhalisi oraya qayıtdıqdan sonra isə status məsələsi müzakirə olunub hazırlana bilər. Heç şübhəsiz ki, bütün bunlar həllini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tapmalıdır. 2008-ci il noyabrın 2-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə imzaladığı bəyannamədə də münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulur.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və problemin dinc vasitələrlə nizama salınması ümummilli liderimiz Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 140-a qədər görüş keçirmişdir.

Azərbaycan çox ağır və çətin keçən danışıqlarda öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrinin həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına manеə törədir. Buna baxmayaraq Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşır. ATƏT-in Minsk Qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməyib. Minsk qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərməmişlər. Təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də azaldır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hazırda dinamik dəyişikliklər mərhələsindədir. Bu münaqişədə Ermənistanın status-kvonun dəyişdirilməsini istəməməsi təhlükənin ehtimalını artırmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq bəyan edib ki, "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq. Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Yəni, Azərbaycanın ərazi bütövlüyü məsələsində heç bir güzəşt olmayacaq". Rusiya Federasiyasının Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" fikri bu münaqişənin həllinin necə nəticələnməli olduğunu birmənalı şəkildə göstərir.

Ermənistan tərəfi anlamalıdır ki, Azərbaycan ərazisinin hərbi işğalı və status-kvonun saxlanılması münaqişənin həlli deyil və heç vaxt Ermənistanın arzuladığı siyasi nəticəni verməyəcəkdir. 2016-cı il Aprel döyüşləri də göstərdi ki, tərəflər arasındakı hərbi balans Azərbaycanın xeyrinə dəyişmişdir. Ermənistan münaqişənin həlli prosesində konstruktiv şəkildə iştirak etməli, beynəlxalq öhdəliklərini yerinə yetirməli və qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmalıdır.

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar şəhid övladları üçün tədbir keçirildi

*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə şəhid övladları üçün 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar tədbir keçirildi.*



Tədbirdə Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin kollektivi, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivləri, şəhid ailələri, müharibə veteranları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar tədbir iştirakçılarını təbrik edərək bildirdi ki, bu tarix xalqımızın birlik günüdür. "Bu günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan çox azərbaycanlı böyük ruh yüksəkliyi ilə qeyd edir. SSRİ-nin süqutunun son dönəmində Araz çayının hər iki sahilində yaşayan azərbaycanlıların sərhədə yürüşü, tikanlı məftilləri qırıb dağıtması, ciddi təzyiqlərə baxmayaraq, həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarları, azərbaycanlıların mübariz olduğunu dünya miqyasında bir daha canlandırdı. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bu birləşmək məqsədinin simvolu idi. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1989-cu il dekabrın sonlarında Naxçıvanda SSRİ-İran sərhədlərinin dağılması zamanı qoyuldu. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Daha sonra 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə 31 dekabr rəsmi olaraq dövlət bayramı - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olundu.



Dünya azərbaycanlılarının həmrəyliyi, təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyi, xalqı öz ətrafında birləşdirməyə qadir olması bu gün azərbaycançılığın yaşarılığını təmin etdi...".

Şöbə müdiri çıxışını Ulu Öndərin "Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən" sözləri ilə bitirdi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov bu günün tarixi əhəmiyyətindən, azərbaycanlıları birləşdirən güc və qüdrətindən ətraflı danışdı. Hamını həmrəy olmağa, birliyə çağırdı.

Tədbirdə çıxış edən Səriyyə Müslümqızı, Nişanə Hüseynova, Novruz Əliyev, Nəcibə Salmanova, Aygün İzzətli və başqaları şəhid ailələrinə göstərilən diqqətə görə dövlətimizin başçısı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Tədbirin sonunda vətənpərvərlik, qəhrəmanlıq mahnıları səsləndirildi.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Ön xətdə konsert

*Cəbhə xəttində yerləşən hərbi hissələrdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin doğum günü, eyni zamanda, qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbirlər keçirildi. Tədbirlərdə əsgər və zabitlər, H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi, respublikamızın tanınmış incəsənət nümayəndələri iştirak etdilər.*



Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Dövlət himni səsləndirildi.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin doğum gününü təbrik edərək, ölkə başçısına cansağlığı, Azərbaycanımızın qüdrətlənməsi naminə geniş fəaliyyətində uğurlar arzuladı. Zabit onu da bildirdi ki, qarşıdan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. "Xalqımız hər il bu günləri böyük coşqu ilə qeyd edir. Ölkəmizin dünya miqyasında tanınmasının məsuliyyəti bütün azərbaycanlıların çiynindədir. Bu gün doğma Vətəndən uzaqda yaşayan soydaşlarımızın üzərinə daha çox məsuliyyət düşür. Azərbaycanla bağlı bütün gerçəkliklər dünyaya ən çox xaricdə yaşayan soydaşlarımızın vasitəsilə çatdırılmalı, harada yaşamasından asılı olmayaraq onlar özünü bu torpağın vətəndaşı saymalı, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında yaxından iştirak etməlidirlər."

Mayor İlkin Qayıbov 1991-ci il dekabrın 16-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmiləşdirildiyini və sonradan Azərbaycan Respublikası Ali Soveti tərəfindən təsdiqləndiyini də diqqətə çatdırdı.

Fatimə Fətəliyevanın aparıcılığı ilə keçirilən konsert proqramı əməkdar artist Elza Seyidcahanın Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə həsr etdiyi mahnısının ifası ilə başladı.

Hərbi hissələrdə keçirilən tədbirlər rəngarəng rəqslərlə, vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən hərbi marşlarla, orduya, Azərbaycan əsgərinə həsr olunan bədii sənət nümunələrinin səsləndirilməsi ilə, oynaq və ritmik musiqi nömrələri ilə davam etdi.

Respublikamızın tanınmış müğənniləri Aynur Dadaşovanın, Rüfət Axundovun, Nigar Rəhimovanın, Rasimə Seyidcahanın və gizirlər Vüsal Ağayevin, Leyla Əliyevanın ifaları şəxsi heyətdə yüksək ovqat yaratdı.

Sonda rəngarəng konsert proqramlarının təşkilində fəal iştirakına görə bir qrup incəsənət nümayəndəsinə hərbi hissələrin komandanlığının fəxri fərmanı təqdim olundu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycançılığın bayramı

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. 1989-cu ilin sonlarına qədər Azərbaycanda milli dəyərlər çətinliklə də olsa yaşadılırdı. Taleyin gərdişi ucbatından Azərbaycandan kənarda yaşayanlar, uzun bir dövr Vətəndə yaşayan azərbaycanlılarla, başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizlə görüşməyə, əlaqələr yaratmağa nail ola bilmədi. Müharibələr, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar.

Sovet rejiminin zəifləməyə başladığı 1980-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Naxçıvanda Güney Azərbaycanla sərhəd dirəklərinin sökülməsi prosesi başladı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

1992-ci ildə Azərbaycan parlamenti dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmasına dair qərar qəbul etdi. Azərbaycan müstəqilliyini bərpa etdiyi vaxtdan hər il 31 dekabr dünyada yaşayan soydaşlarımızın milli birlik günü kimi qeyd olunur. 1993-cü ildən rəsmi bayram kimi qəbul edilir.

31 dekabr dünya azərbaycanlılarının mənəvi birliyinin rəmzidir. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq soydaşımızla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Bu bayram azərbaycançılığın bayramıdır. Bu bayram böyük tarixi şəxsiyyət Heydər Əliyevin azərbaycançılıq ideologiyasının yaşarılığını yaşatmaq istəyinin bayramıdır...

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

# Hər günümüzü həmrəylik günü ovqatıyla yaşayacağıq

*Eyni məfkurə ətrafında birlik mənəvi güc deməkdir. Azərbaycançılıq dünya azərbaycanlılarının mənəvi birliyini, bu birliyin dönməzliyini şərtləndirən amillərdəndir. 31 dekabr bu baxımdan "Mən azərbaycanlıyam!" - deyənlərin hər birinin ruhunun günüdür. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü hərbi qulluqçular da azərbaycançılığı yaşatma bayramı bilir. Onlar Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa qadirdirlər.*

**"Azərbaycan Ordusu"**



**Leytenant Həsən Zayidov:**

Orta məktəbin sonuncu sinfində oxuyan qonşumuz Rahimin hərbçi olmaq istədiyini bilirdim. Onunla həm də bu haqda söhbətlərimiz olmuşdu. Bu peşənin gərəkliyi haqqında Rahimdən eşitdiklərim mənim də peşə seçimimdə müstəsna rol oynadı. Həmin vaxta kimi həkim olmaq, insanların sağlamlığının keşiyini çəkmək istəyirdim. Bu söhbətlərdən sonra qəti qərara gəldim ki, əgər torpağın keşiyini çəkərəmsə, demək, insanların da keşiyini çəkərəm. Hərbçi olmaq arzuma valideynlərim xeyir-dua verdi. Orta təhsilimi başa vurandan sonra sənədlərimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdim. Qəbul oldum. Kursant kimi qürurum yerə-göyə sığmırdı...

Eyni duyğuları Hərbi and içəndə də yaşadım, leytenant rütbəsi alanda da. Həmin gün bir daha əmin oldum ki, hərbçi peşəsi olduqca gərəkli peşədir. Mən də bu gərəkli peşəmdə Vətənə xidmətə başladım.

Komandirlərimin tövsiyələrini kursant olaraq öyrəndiklərimin zəruri davamı bildim və xidmət edə-edə yenə öyrəndim. Əslində, bu proses yaxşı hərbçi olmaq üçün son dərəcə zəruridir və mən də bu zəruri amili hərbi xidmətim üçün başlıca şərtlərdən biri bildim. Onu da dərk etdim ki, öyrədə-öyrədə öyrənmək də gərəklidir. Qürurlanıram ki, təcrübəli zabitlərimizdən məsuliyyətlə öyrəndiklərimi əsgərlərimizə məsuliyyətlə aşılayıram...

Xidmət etdiyim hərbi hissələrdə təcrübəli zabitlərdən öyrənə-öyrənə, bu peşənin sirlərini daha dərindən mənimsəməyə başladıq. Eyni zamanda, əsgərləri öyrədə-öyrədə də öyrəndiklərimizi, bildiklərimizi daha etibarlı şəkildə dərinləşdirdik.

Ön xətdə xidmət edirəm. Bu, mənim üçün daha böyük qürurdur. Əsgərlərimiz yüksək döyüş əzminə, qələbə ruhuna malikdirlər.

2016-cı ilin Aprel döyüşlərində kursant idim. Biz də döyüşə getmək istərdik. Təbii ki, bizə ehtiyac olmayacaqdı. İndi zabitik. Ön xətdə xidmət edən zabit kimi, Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəyimiz döyüşlərdə mən də iştirak edəcəm. Mən də, digər zabit yoldaşlarım da, əsgərlərimiz də qəhrəmanlarımızın döyüş yolunu mərdliklə, əzmlə, əsl hərbçi qətiyyətiylə davam etdirəcəyik, əsgərlərimiz qalib əsgər kimi tərxis olunmaq istəyirlər.

Mən öz adımdan, zabit yoldaşlarımın adından, döyüş növbətçiliyi aparan əsgərlərimizin adından "Mən azərbaycanlıyam!" deyənlərin hamısını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, hərbçilərə xidmətlərində uğurlar arzulayıram.

Əminəm ki, yaxın vaxtlarda dövlət sərhədlərimiz daxilində səngər olmayacaq.

**Baş gizir İlyas Qasımov:**

Həqiqi hərbi xidmətimdən sonra mən də tərxis edildim. Az sonra dərk etdim ki, hərbi mundiri ancaq qələbə günündən sonra soyuna bilərəm. Yenidən hərbi xidmətə qayıtmağı qərara aldım. Müraciətim nəticəsiz qalmadı. Sənədlərimi gizir hazırlığı kursuna verdim.

Ön xətdə xidmət edirəm. Etiraf edirəm ki, nümunəvi əsgər olanlar sonralar da nümunəvi xidmət edirlər, necə deyərlər, yaxşı əsgər olmusansa, yaxşı da gizir olacaqsan. Əsgər kimi xidmətimdə gizir hazırlığı kursunda müəyyən hərbi biliklər öyrənmişdim. Gizir kimi xidmətə



başlayanda zabitlərimizin, təcrübəli gizirlərimizin məsləhətlərindən də yüksək səviyyədə, həvəslə bəhrələndim. Hərbi xidmətimi böyük qürurla davam etdirirəm.

2016-cı ilin aprelində bizim hərbi hissə döyüşlərə cəlb edilmədi. Ali Baş Komandanın döyüş əmri torpaqlarımızın işğaldan tamamilə azad edilməsiylə nəticələnəcək. Biz bu əmri Böyük Qələbəylə tamamlayacağıq.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü hər birimizin mənəvi-psixoloji hazırlığını şərtləndirən amillər sırasındadır. Bu bayramın mahiyyəti azərbaycançılıqdır, dövlətçilikdir. Biz də hərbi qulluqçu olaraq azərbaycançılığın, dövlətçiliyin əsgəriyik.



2018-ci ildə Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradları izləyənlər ordumuzun gücü haqqında daha geniş təəssüratlara malik oldular. Biz də fəxr edirik ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. İnanırıq və əminik ki, sıralarında xidmət etdiyimiz ordu Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcək.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü hərbçilər də könül xoşluğu ilə qarşılayırlar. Azərbaycan Ordusunun hərbi qulluqçularını, mülki işçilərini, ümumən bütün azərbaycanlıları bayram münasibətilə təbrik edirəm. Əminəm ki, yaxın vaxtlarda qələbə münasibətilə təbrikləşəcəyik...

**Əsgər Malik Rzayev:**

Valideynlərimizin, zabitlərimizin, ictimaiyyətin nümayəndələrinin iştirakıyla keçirilən təntənəli andiçmə mərasimini mən də heç zaman unutmayacam. Həmin günün sevincini indiyəcən yaşamaqdayam. Ön xətdə xidmət edirəm. Komandirlərim, təcrübəli əsgər yoldaşlarım dəyərli tövsiyələr vermişdilər. İlk döyüş növbətçiliyimiz də yaddaşıma əbədi həkk olunub. Onu da xatırlayıram ki, həyəcanım bir anlıq oldu. Dərk etdim ki, düşmənlə üz-üzə dayanan əsgər həyəcanlanmamalıdı. Həyəcanım sovuşdu. Vətən kəlməsinin müqəddəsliyini həmin gün daha əhatəli şəkildə dərk etdim.

Hər birimiz yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikik. Döyüş əzmimiz də yüksəkdir, qələbə ruhumuz da. Bu əzm, bu ruh Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaqdır.

Bu yaxınlarda Müdafiə naziri general-polkovnik Zakir Həsənov yenə ön xətdə səngərlərdə əsgərlərlə söhbətləşdi, xidmətdə fərqlənənlərə qiymətli hədiyyə verdi. Mən də fəxr edirəm, qürurlanıram ki, fərqlənən, hədiyyə alan əsgərlərin sırasında mən də oldum. Bu hədiyyə mənim hərbi xidmətimdə, təbii ki, mühüm mənəvi amil oldu. Vətənimə daha məsuliyyətlə xidmət edirəm, Ali Baş Komandanın döyüş əmrini yerinə yetirəcək əsgərlərin də sırasında olmaq istəyirəm. Torpaqlarımızın işğaldan azad ediləcəyi gün ən böyük bayramımız olacaq.

Azərbaycan Ordusunun şəxsi heyətini 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, hər birinə xidmətində uğurlar, cansağlığı arzulayıram. Arzu edirəm ki, məcburi köçkünlər gələn bayramı öz doğma ocaqlarında qeyd etsinlər.

# İdman

## Azərbaycan komandası "Prezident kuboku" beynəlxalq döyüş sənətləri festivalının qalibi olub



Bakıda keçirilən "Prezident kuboku" beynəlxalq döyüş sənətləri festivalı başa çatıb.

Azərbaycanda ilk dəfə olaraq baş tutan festivalda 11 döyüş növü bir turnirdə təmsil olunub.

Festivalda ən çox medal qazanan komanda Azərbaycan millisi olub. Hesabında olan medalların sayına görə Özbəkistan komandası ikinci, İran isə üçüncü olub.

## Azərbaycanlı kikboksinqçi növbəti dəfə peşəkar döyüş keçirəcək




Gələn ilin fevral ayının 29-da azərbaycanlı kikboksinqçi Ramal Aslanov növbəti peşəkar döyüşünə çıxacaq.

73 kiloqram çəki dərəcəsində mübarizə aparan "Lord" ləqəbli azərbaycanlı idmançı Belarusun paytaxtı Minskdə keçiriləcək "MGC Live 2 Fight" döyüş gecəsi çərçivəsində yerli idmançı Maksim Spodarenko ilə qarşılaşacaq.

Bu il 75 kiloqram çəkidə dünya çempionu olmuş 27 yaşlı R. Aslanov indiyədək peşəkar rinqdə 40 döyüş keçirib. O, bunlardan 35-də qalib gəlib. M.Spodarenko kikboksinqin K-1 versiyası üzrə ötən il Avropa çempionu və qitə kubokunun qalibi olub. Həmin il K-1 üzrə Avropa çempionatının ən yaxşı döyüşçüsü mükafatını alıb. Bu il isə o, dünya kubokunu qazanıb.

## Həndbolçuların ikinci dövrəsinə yekun vurulub

Kişi həndbolçuların Azərbaycan çempionatında doqquzuncu turun oyunları keçirilib.

İkinci dövrənin sonuncu turunda əvvəlcə "Məhsul" və U-18 komandaları meydançaya çıxıblar. Çempionatın lideri autsayderlə oyunda çətinlik çəkmədən qələbə qazanıb. Səviyyə fərqinin açıq-aşkar nəzərə çarpdığı görüş "Məhsul"un 42:24 hesablı qələbəsi ilə nəticələnib. Günün digər qarşılaşması da eyni ssenari ilə yadda qalıb. Çempionluq uğrunda mübarizə aparan "Bakı" "Təhsil"lə oyunun şəksiz favoriti olduğunu hesabda əks etdirib. Nominal ev sahibi çox çalışsa da ağır məğlubiyyətdən yaxa qurtara bilməyib - 18:33.

Növbəti qələbəsini qazanan "Məhsul" 16 xalla ikinci dövrəni lider kimi başa vurub. "Bakı" ondan iki xal geridədir. Üçüncü pillənin sahibi "Təhsil"in aktivində 3 xal var. U-18 isə 1 xalla yarış cədvəlinin autsayderidir.

## Qılıncoynatma üzrə Bakı çempionatı keçirilib



Azərbaycan Texniki Universitetinin İdman Sarayının qılıncoynatma zalında şpaqa və sablya üzrə Bakı çempionatı keçirilib.

Yarışda oğlanlar arasında sablyada Cavanşir Ağakişiyev və şpaqada Ruslan Həsənov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qızların mübarizəsində isə sablyada Zərifə Hüseynova və şpaqada Nazilə Rəhimova birinci olublar.

Turnirin mükafatçıları Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Qılıncoynatma Federasiyası tərəfindən diplom və medallarla təltif olunublar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1069
Nüsxə 3950